## 2015-ci ilin xronikası

**26-28 yanvar** tarixlərində Qabon Respublikasının İqtisadiyyat, İnvestisiyaların təşviqi və Planlaşdırma naziri yanında nazir-deleqat xanım Marie-Julie Bilogo-Bi-Nzendongun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Yanvarın 26-da nümayəndə heyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüşü keçirilmişdir. Görüşdə hər iki ölkənin gömrük xidmətləri arasında sıx əməkdaşlıq əlaqələrinin yaradılması üçün bütün imkanlardan maksimum yararlanmağın vacibliyi vurğulanmış və bu məqsədlə yaxın perspektivdə müvafiq saziş layihəsinin imzalanacağı bildirilmişdir. Dövlət Gömrük Komitəsində nümayəndə heyəti DGK rəhbərliyi arasında görüş keçirilmiş, DGK-nın“Hədəf” Mərkəzi, Kinoloji Mərkəzi, Gömrük Hospitalı, ÜGT-nin Regional Tədris Mərkəzi və Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisi ilə tanış olunmuş, eləcə də Bakı Baş Gömrük İdarəsinin, “İpək Yolu” Yük Terminalının, Mərkəzi Gömrük Ekspertiza İdarəsinin fəaliyyətləri barədə yerindəcə məlumat verilmişdir. Qabon Respublikasının iqtisadiyyat, investisiyaların təşviqi və planlaşdırma naziri yanında nazir-deleqat xanım Marie-Julie Bilogo-Bi-Nzendongun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri Qabonun kütləvi informasiya vasitələrində də işıqlandırılmışdır.

**4-5 fevral** tarixlərində Rusiya Federasiyası Federal Gömrük Xidmətinin rəhbəri Andrey Belyaninovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Həmin gün nümayəndə heyəti öncə Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcədə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüb. Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının məzarlarını ziyarət ediblər. Daha sonra ilə Dövlət Gömrük Komitəsində nümayəndə heyəti görüş keçirilmişdir. Görüşdən sonra Rusiya nümayəndə heyəti Dövlət Gömrük Komitəsində gömrük xidmətinin müasirləşdirilməsi layihələri ilə tanış olmuşdur.

**9 fevral** tarixində Azərbaycanda səfərdə olan Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsinin sədri Daulet Yerqojinin rəhbərlik etdiyi nümayəndə heyətilə Dövlət Gömrük Komitəsində görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Qazaxıstan və Azərbaycanın qardaş və tərəfdaş ölkələr kimi sürətli inkişaf yolu ilə irəlilədiklərini vurğulayıb, siyasi-iqtisadi və mədəni sahələrdə əlaqələrdən söhbət açıb. DGK sədri ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, gömrük sferasında da qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib və qazaxıstanlı həmkarının Azərbaycana səfərinin ikitərəfli münasibətlərin davamlı inkişafına xidmət edəcəyinə əminliyini ifadə edib. Sənədi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsinin sədri DauletYerqojin imzalayıb. Görüş başa çatdıqdan sonra Qazaxıstan nümayəndə heyəti Dövlət Gömrük Komitəsində gömrük xidmətinin müasirləşdirilməsi layihələri ilə tanış olub.

**10-12 fevral** tarixlərində ABŞ-ın San Fransisko şəhərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycanın Los Ancelesdəki baş konsulluğunun birgə təşkilatçılığı ilə “Narkotiklərə yox deyək!” devizi altında tədbir keçirilmişdir. Nüfuzlu “Qızıl kürə“ mükafatının hər il keçirildiyi məkanda təşkil olunan və Azərbaycan rəmzlərinin əks etdirildiyi səhnənin qurulduğu tədbirdə 600-dən çox tamaşaçı, San Fransisko ictimaiyyətinin tanınmış nümayəndələri, burada fəaliyyət göstərən bir sıra ölkələrin baş və fəxri konsulları, müxtəlif qurum və təşkilatların təmsilçiləri, eləcə də Azərbaycan

diasporunun fəalları və şəhər sakinləri iştirak etmişlər. San Fransisko Polis Departamentinin narkotiklərlə mübarizə idarəsinin rəisi Robert Moser, San Anselmo şəhərinin vitse-meri Daq Kelli və ABŞ-ın narkomaniyaya qarşı mübarizə üzrə tanınmış təşkilatı olan D.A.R.E.-nin (Drug Abuse Resistance Education) prezidenti Frank Pequerros çıxış edərək xüsusilə gənc nəslin maarifləndirilməsi üçün belə tədbirlərin keçirilməsinin vacibliyini bildirib, bu istiqamətdə Azərbaycanın beynəlxalq səviyyədə apardığı ardıcıl təbliğat işlərinin təqdirəlayiq olduğunu vurğulayıblar. Azərbaycanlı və xarici sənətkarların narkomaniyaya qarşı mübarizə mövzusunda karikaturaları, heykəltəraşlıq və rəngkarlıq əsərlərindən ibarət olan və Dövlət Gömrük Komitəsinin tərtib etdiyi sərgi San Fransisko ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır.

**11 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev ATƏT-in Bakı Ofisinin Layihə Əlaqələndiricisi Aleksis Şaxtaxtinskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan DGK sədri Azərbaycan və ATƏT arasında səmərəli əlaqələrdən bəhs etmiş, xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikamızın inkişafı naminə həyata keçirdiyi və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilən uğurlu iqtisadi islahatlar nəticəsində respublikamızın əldə etdiyi nailiyyətlərdən, o cümlədən gömrük sisteminin inkişafından danışmışdır.

**12 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevlə Litva Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Valdas Lastauskas arasında görüş keçirilmişdir. Görüşdə Azərbaycan-Litva əlaqələrinin inkişaf dinamikası ətraflı müzakirə edilmiş və qarşılıqlı əlaqələrin gələcək perspektivləri barəsində ətraflı fikir mübadiləsi aparılmışdır. Qeyd etmək istərdik ki, Azərbaycanla Litva arasında bütün sahələrdə əlaqələr yüksələn xətlə inkişafdadır. İki ölkənin uğurlu əməkdaşlıq trayektoriyası gömrük sferasını da hərtərəfli əhatə edir.

**19-20 fevral** tarixlərində Belçika Krallığının Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi Komitəsinin Potensialın Gücləndirilməsi üzrə Regional Ofislər, Regional Tədris Mərkəzləri və Sədr Müavini Ofislərinin rəhbərlərinin iclası keçirilmişdir. İclasda gömrük xidmətində potensialın gücləndirilməsi sahəsində strateji çağırışlarla bağlı baxışların daha təfsilatlı formada müəyyən olunmasına və bu sahədə regional resursların mobilizasiyası işinin sürətləndirilməsinə yönəldilmiş məruzələr edilmiş və tövsiyələr verilmişdir. Fevralın 23-də isə ÜGT-nin Potensialın Gücləndirilməsi Komitəsinin təşkil etdiyi “Nəticəni düşünərək başlamaq: nəticəyə yönəlmiş keyfiyyətli icra” mövzusunda 6-cı iclas öz işinə başlamışdır. İclasda 60-a yaxın ölkədən 200 nəfər nümayəndə heyəti iştirak etmişdir. Təqdimatdan sonra TRS layihəsinin həyata keçirilməsi və nəticələri ilə bağlı Azərbaycan Respublikası və İran İslam Respublikası arasında sərhəd gömrük buraxılış məntəqələrində çəkilmiş qısamüddətli film göstərilmişdir. Daha sonra suallara ətraflı cavab verilmişdir. İclasa sədrlik edən ÜGT-nin Potensialın Gücləndirilməsi Komitəsinin direktoru TRS layihəsi ilə bağlı Azərbaycan təcrübəsinin öyrənilməsini üzv ölkələrə tövsiyə etmişdir.

**20 fevral** tarixdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Avstriyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Aksel Vexin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
Aydın Əliyev ilk olaraq səfiri yeni təyinatı münasibətilə təbrik etmiş, ona diplomatik fəaliyyətində uğurlar arzulamışdır. Avstriya hökumətinin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini vurğulayan səfir iki dost ölkə arasındakı münasibətlərin hazırkı durumundan razılıqla söhbət açmış, eləcə də Avstriya ilə Azərbaycanın gömrük orqanlarının birgə əməkdaşlığını müsbət qiymətləndirmişdir.

Görüşdə, eyni zamanda iki ölkənin gömrük orqanları arasında qarşılıqlı əlaqələrin gələcək perspektivləri barəsində geniş fikir mübadiləsi aparılmışdır.

**4-5 mart** tarixlərində İstanbul şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) işçi qruplarının iclasları keçirilmişdir. Həmin tədbirlərdə Azərbaycan tərəfindən Dövlət Gömrük Komitəsi Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Mirqasım Vahabov da iştirak etmişdir. Martın 4-də nəqliyyat mütəxəssislərinin iştirakı ilə Ticarət və İqtisadi İnkişaf və Gömrük Məsələləri üzrə işçi qruplarının birgə iclası, martın 5-də isə Gömrük Məsələləri üzrə işçi qrupunun iclası keçirilmişdir. İlk iclasın gündəliyi təsdiq olunarkən nəzərdə tutulan "QDİƏT üzv dövlətlərinin ərazisindən keçən nəqliyyat dəhlizlərinin rəqabətliliyini və səmərəliliyini artırmaq" 4-cü bəndinin müzakirəsi zamanı Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsi səbəbindən Ermənistanla hər hansı əməkdaşlığın istisna edildiyi, eyni zamanda gündəliyin 5-ci bəndi - QDİƏT Ticarət və İqtisadi İnkişaf və Gömrük Məsələləri, Nəqliyyat üzrə işçi qruplarının birgə iclasının keçirilməsilə bağlı təklifin müzakirəsi zamanı isə ölkəmizin Ümumdünya Ticarət Təşkilatının üzvü olmadığının nəzərə alınması barədə Azərbaycan tərəfinin təklifləri iclasın Katibliyinə və iştirakçıların diqqətinə çatdırılmışdır.

**31 mart** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev ölkəmizdə səfərdə olan Ukrayna-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Ukrayna Ali Radasının gömrük və vergi məsələləri üzrə komitəsinin sədri Roman Nəsirovu qəbul etmişdir. Aydın Əliyev iki ölkə arasında mövcud əlaqələrdən söhbət açmış və qeyd etmişdir ki, Azərbaycan-Ukrayna əlaqələrinin perspektivi böyükdür. DGK sədri Azərbaycanla Ukrayna arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulamışdır. Azərbaycan Gömrük Xidmətinin Ukrayna Dövlət Gömrük Xidməti ilə qarşılıqlı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu nəzərə çatdıran DGK sədri bu baxımdan tərəflər arasında əlaqələrin inkişafının və inteqrasiyasının vacibliyini bildirmişdir. Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılmış, eləcə də kadr potensialının gücləndirilməsi, informasiya texnologiyalarının tətbiqi, əməliyyat-axtarış fəaliyyəti, "bir pəncərə" prinsipinin tətbiqi sahəsində birgə əməkdaşlığın gələcək perspektivləri müzakirə olunmuşdur.

**7-11 aprel** tarixlərində Kamerun Gömrük İdarəsinin baş direktoru xanım LiLikeng Minette Mendomo Avoumvele Libomun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Öncə qonaqlar Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüblər. Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət ediblər. Həmin gün nümayəndə heyəti ilə Dövlət Gömrük Komitəsində görüş keçirilmişdir. Görüşdə Aydın Əliyev Kamerun və Azərbaycan arasında diplomatik münasibətlər olsa da, lakin indiyədək iqtisadi və digər sahələrdə ikitərəfli əlaqələrin formalaşmadığını vurğulamışdır. Kamerunun ilk rəsmi nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluğunu bildirən Komitə sədri gömrük orqanları vasitəsilə yaradılan bu ilk əməkdaşlıq əlaqələrinin hər iki ölkənin digər sahələrdə də qarşılıqlı münasibətlərinin yaradılması işinə böyük töhfə verəcəyinə əmin olduğunu bildirmişdir. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.



**4 may** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Strateji malların qanunsuz dövriyyəsinin qarşısının alınması" mövzusunda regional təlim keçirilmişdir. Təlim BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının birgə təşkilatçılığı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dəstəyi ilə baş tutmuşdur. Tədbir Azərbaycan, Qazaxıstan, Pakistan və Türkmənistan gömrük xidmətlərinin əməkdaşları üçün nəzərdə tutulmuşdur və ABŞ mütəxəssisləri tərəfindən aparılmışdır. İştirakmılar "Saxtakarlıq nümunələri", "Nüvə silahları və texnologiyaları", "Sənaye avadanlıqları", "Quraşdırılmış komponentlər - I", "Bioloji silahlar və texnologiyalar", "Kimyəvi maddələr", "Embarqo və sanksiyalar", "Xüsusi nüvə materialları", "Bioloji agent və toksinlər", "Elektronik komponentlər", "Elektronik təchizat" və digər mövzulara dair məruzələri dinləmiş, eləcə də mövzular ətrafında müzakirələrə və praktiki məşğələlərə qatılmışlar. Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunmuşdur.

**23-24 aprel** tarixlərində Polşa Respublikasının Vrotslav şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə Gömrük Xidməti Rəhbərlərinin Konfransı keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev iştirak etmişdir. Konfransın açılış mərasimində çıxış edən ÜGT-nin Avropa Regionu üzrə sədr müavini Heinz Zourek ötən müddət ərzində həyata keçirilən tədbirlər və fəaliyyət haqqında geniş məlumat vermişdir. O, öz çıxışında Ümumdünya Gömrük Təşkilatının regionlar üzrə apardığı siyasətə uyğun olaraq potensialın gücləndirilməsi istiqamətində görülmüş işləri, təşkil olunmuş tədbirləri və onların müsbət nəticələrini xüsusi olaraq qeyd etmişdir. Daha sonra çıxış edən ÜGT-nin Baş katibi Kunio Mikuriya iclasın yüksək səviyyədə təşkilinə görə Polşa Respublikası Hökumətinə və Ümumdünya Gömrük Təşkilatının Avropa regionu üzrə sədr müavininə öz minnətdarlığını bildirmişdir. O, öz çıxışında ÜGT-nin Strateji Planına əsaslanan mövcud prioritetləri, ÜGT tərəfindən ticarətin asanlaşdırılması, potensialın gücləndirilməsi, malların buraxılış vaxtının ölçülməsi, regional və milli seminarların keçirilməsi istiqamətində görülmüş işlər və ÜGT-nin Mercator proqramı barədə ətraflı məlumat vermişdir.




12 may tarixində ölkəmizdə səfərdə olan Vyetnam Sosialist Respublikası maliyyə nazirinin müavini, gömrük və vergi üzrə dövlət idarəçiliyi sahəsində kurator Do Hoang Anh Tuanın rəhbərlik etdiyi nümayəndə heyətilə Dövlət Gömrük Komitəsində görüş keçirmişdir. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Azərbaycanın dost ölkə Vyetnam ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsində və daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına ötənilki səfərini xatırladan DGK sədri yüksək səviyyəli qarşılıqlı təmasların ölkələrimiz arasında əlaqələrin dinamik və uğurlu inkişafının göstəricisi olduğunu vurğulamışdır. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.



26 may tarixindəDövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkunu qəbul etmişdir. Qonağı mehribanlıqla salamlayan DGK sədri Aydın Əliyev qardaş ölkənin səfiri ilə görüşdən məmnun olduğunu söyləyərək, ölkəmizin xarici iqtisadi siyasətində Türkiyə Cümhuriyyəti ilə əlaqələrə xüsusi önəm verildiyini, gələcəkdə qarşılıqlı münasibətlərin daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırmışdır. Aydın Əliyev əlaqələrin daim yüksələn xətlə inkişaf etdiyini qeyd edərək iqtisadi-ticari münasibətlərdən də söhbət açmış, iki qardaş ölkənin gömrük qurumları arasındakı

əlaqələrdən, əməkdaşlığın hazırkı vəziyyətindən razılığını bildirmiş, xüsusilə qarşılıqlı təcrübə mübadiləsinin ümumi işə faydasından bəhs etmişdir.

4 iyun tarixində Qazaxıstan Respublikasının Şimkent şəhərində Müstəqil Dövlətlər Birliyi Üzv Dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 61-ci iclası keçirilmişdir. İclasda Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-leytenantı Rza Həsənəliyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir. İclası Rusiya Federal Gömrük Xidməti rəhbərinin müavini Vladimir Malinin açaraq tədbirdə müzakirə olunması nəzərdə tutulmuş məsələləri iştirakçıların diqqətinə çatdırmışdır. Şuranın katibi MDB Üzv Dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 60-cı iclasında qəbul olunmuş qərarların yerinə yetirilməsinin vəziyyəti haqqında iştirakçılara ətraflı məlumat vermiş və bu barədə qərar imzalanmışdır. İclas zamanı “Gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 15 aprel 1994-cü il tarixli Sazişə əlavə və dəyişikliklər edilməsi haqqında Protokol”un üzv dövlətlərin gömrük xidmətlərinin rəy və təklifləri nəzərə alınmaqla hazırlanmış layihəsi məqbul hesab edilmiş, həmçinin 2015-ci ilə qədər Rusiya Gömrük Akademiyasında MDB üzv dövlətlərin gömrük xidmətləri üçün kadrların ixtisas üzrə hazırlığı Konsepsiyasının həyata keçirilməsi barədə Rusiya Federal Gömrük Xidmətinin məlumatı nəzərə alınmışdır. MDB üzv dövlətlərin gömrük xidmətlərinin ekspertlərinin iclasının 2015-ci ilin sentyabr ayında Moskva şəhərində, MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 62-ci iclasının isə 2015-ci ilin dördüncü rübündə Rusiya Federasiyasında keçirilməsi qərara alınmışdır. Dövlət Gömrük Komitəsi sədrinin müavini Rza Həsənəliyev iclas çərçivəsində Rusiya Federal Gömrük Xidməti və Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsinin rəhbər vəzifəli şəxsləri ilə ikitərəfli görüşlər keçirmişdir. Görüşlərdə gömrük işi sahəsində perspektiv məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılmışdır.

11-13 iyun tarixlərində Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatının Baş Qərargahında Təşkilatın ali orqanı olan Şuranın 125/126-cı Sessiyaları keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir. Sessiyanın ilk günü, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın geniş hesabatı təqdim olunmuşdur. Ötən maliyyə ili ərzində görülmüş işlər barədə məruzə edən Baş katib, xüsusən Ümumdünya Ticarət Təşkilatı çərçivəsində Ticarətin Asanlaşdırılması Sazişinə ÜGT dəstəyini reallaşdırmaq üçün qəbul olunmuş Mercator Proqramı haqqında ətraflı məlumat vermişdir. ÜGT-nin keçirdiyi illik foto müsabiqənin nəticəsinə uyğun olaraq Sudan Gömrük Xidmətinin təqdim etdiyi foto qalib seçilmişdir. Bu ilin sentyabr ayında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və ÜGT-nin birgə təşkilatçılığı ilə Bakı şəhərində ÜGT PİCARD Konfransının keçiriləcəyini nəzərə alaraq sessiya zamanı ölkəmizin iqtisadi inkişafı, keçirilmiş beynəlxalq tədbirlər, o cümlədən Gömrük Komitəsinin ev sahibliyi etdiyi beynəlxalq tədbirləri özündə əks etdirən video-çarx nümayiş etdirilmiş, 180 ölkənin nümayəndələri bu tədbirə dəvət olunmuşdur.

9 iyul tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Gürcüstan Maliyyə Nazirliyi Gömrük Departamentinin rəisi Vladimer Xundadzeni və Beynəlxalq Əlaqələr Departamentinin rəisi Samson Uridianı qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri tarixi köklərə əsaslanan Azərbaycan-Gürcüstan əlaqələrinin hazırkı durumundan məmnunluqla söhbət açmış, xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin əməyi, uzaqgörən siyasəti nəticəsində iki qonşu, dost ölkə arasında əlaqələrin daha da möhkəmləndiyini və bu siyasətin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir. Dövlət Gömrük Komitəsinin sədr müavinləri Əsgər

Abdullayev və Şahin Bağırovun da iştirak etdiyi görüşdə iki ölkə arasında mövcud sərhəd-gömrük buraxılış məntəqələrində işlərin intensivləşdirilməsi, yeni sərhəd-gömrük buraxılış məntəqələrinin açılması, qaçaqmalçılığa qarşı birgə mübarizə, ölkəmizdə keçiriləcək PİCARD konfransında Gürcüstan tərəfinin iştirakı və bir sıra digər məsələlər barəsində ətraflı fikir mübadiləsi aparılmışdır.

8 iyul tarixində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində GUAM Ticarət və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbəredici Komitənin 22-ci iclası keçirilmişdir. İclasa GUAM üzvü olan ölkələrin - Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın nümayəndə heyətləri qatılıb. Həmin gün tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə güllər düzüb, Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Tədbir başa çatdıqdan sonra isə GUAM üzvü olan ölkələrin gömrük xidmətləri arasında bu ölkələrin dövlət sərhədlərindən keçirilən mallar və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Protokol imzalanmışdır. Həmin gün nümayəndə heyətləri Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə gələrək burada "Hədəf" Mərkəzinə baxış keçirib, gömrük xidmətinin müasirləşdirilməsi layihələri ilə tanış olmuşdur.



28 iyul tarixində Dövlət Gömrük Komitəsi Tovuz Gömrük İdarəsinin Gürcüstanla sərhəddə yerləşən "Sınıq Körpü" gömrük keçid məntəqəsində Azərbaycan və Gürcüstan gömrük orqanlarının nümayəndə heyətlərinin görüşü keçirilmişdir. Görüşdə "Sadıxlı" və "Mtkvari" keçid məntəqələrindən sərnişinlərin 24 saat keçidinin təmin olunması üçün lazımi tədbirlərin görülməsi, cari ilin avqust ayından etibarən isə saat 08.00-dan 20.00-dək yüngül minik avtomobillərinin keçidinin təmin olunması barədə razılıq əldə olunmuşdur.

24 avqust tarixində Tbilisi şəhərində, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətlərinin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan və Gürcüstan arasında iqtisadi, siyasi və mədəni əlaqələrin hazırkı durumu yüksək qiymətləndirilib, iqtisadi əlaqələrdə gömrük orqanlarının da üzərinə mühüm vəzifələrin düşdüyü qeyd olunub. Görüş zamanı iki

ölkənin müvafiq qurumları arasında qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi və təcrübə mübadiləsinin ümumi işə faydası vurğulanıb.

**7 sentyabr** tarixində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində 8-10 sentyabr tarixlərində Bakı şəhərində keçirilmiş Ümumdünya Gömrük Təşkilatının 10-cu illik PICARD ("Gömrük sahəsində akademik araşdırmalar və inkişaf üzrə əməkdaşlıq proqramı") konfransı ərəfəsində Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın rəhbərlik etdiyi nümayəndə heyətilə görüş keçirilmişdir. Sentyabrın 7-də konfrans iştirakçıları Fəxri xiyabana gələrək Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, eləcə də Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının məzarlarını ziyarət ediblər. Görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinin Ümumdünya Gömrük Təşkilatının Regional Kinoloji Mərkəzi kimi istifadə edilməsinə dair Anlaşma Memorandumu imzalanıb.



**7 sentyabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Kinoloji Mərkəzinin rəsmi açılış mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev və Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya iştirak ediblər. DGK sədri bildirib ki, 20 il əvvəl fəaliyyətə başlayan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzi bu gün gömrük xidmətinin mühüm strukturlarından birinə çevrilib. Belə ki, burada təlim görən itlərin köməyi ilə bir sıra irimiqyaslı əməliyyatlar həyata keçirilərək külli miqdarda narkotik vasitələr, partlayıcı maddələr və s. aşkar olunub. Sentyabrın 8-də Bakı şəhərində ÜGT-nin Regional Kinoloji Mərkəzində ÜGT-yə üzv olan bəzi dövlətlərin kinoloqları və xidməti itlərindən ibarət komandalarının nümayişi keçiriləcək, habelə MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinin kinoloji strukturlarının çoxnövçülükdə birincilik üzrə V yarışına start veriləcək.

**8-9 sentyabr** tarixlərində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının MDB ölkələri üzrə hüquq mühafizə fəaliyyətinə dair RILO-Moskva Regional Məlumat Əlaqələndirmə Qovşağının iştirakçı ölkələrinin gömrük xidmətlərinin milli əlaqələndirmə qovşağı rəhbərlərinin 14-cü iclası keçirilmişdir. ÜGT-nin Potensialın Gücləndirilməsi

üzrə Avropa Regional Ofisində təşkil olunan iclasa Azərbaycan, Rusiya, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və Tacikistan gömrük orqanlarının əməkdaşları, eləcə də RILO-Seul, RILO-Ər-Riyad, RILO-Varşava və RILO-Kölnün məsul nümayəndələri qatılmışdır. Sentyabrın 9-da isə iclasda gömrük xidmətlərinin hüquq mühafizə bölmələrinin işində CEN Milli Gömrük Hüquq Mühafizə Şəbəkəsinin tətbiqi və RILO-Moskvanın 2016-cı il üçün iş Planının layihəsinin razılaşdırılması məsələləri müzakirə edilmişdir.

**8-10 sentyabr** tarixlərində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının 10-cu illik PICARD ("Gömrük sahəsində akademik araşdırmalar və inkişaf üzrə əməkdaşlıq proqramı") konfransı keçirilmişdir. "Gülüstan" sarayında təşkil olunan konfransda Azərbaycan da daxil olmaqla, 53 ölkədən 241 nümayəndə, 21 beynəlxalq və regional təşkilatın təmsilçisi, o cümlədən, 3 Nobel mükafatçısı iştirak etmişdir. Konfransın açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Prof. Aydın Əliyev rəhbəri olduğu təşkilatın ÜGT-nin 10-cu illik PICARD konfransına ev sahibliyi etməsindən məmnunluq hissi duyduğunu bildirimişdir. O, vurğulamışdır ki, beynəlxalq ticarətin ötən illər ərzində böyük artımı bütün dünyada gömrük idarələri qarşısında yeni çağırışlara yol açıb. Bu baxımdan PICARD konfransı akademik tədqiqatlar və debatlar vasitəsilə strategiyaları və siyasəti formalaşdırmaq məqsədilə gömrük sahəsində mühüm qərarlar verən şəxslərə kömək etməyə çalışır. Daha sonra konfrans "Gömrük əməkdaşlarının təşviq edilməsi amilləri" və "Qlobal Dəyər Zəncirləri" adlı sessiyalarla işini davam etdirmişdir.



**9 sentyabr** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev və Qabon Respublikası İqtisadiyyat, İş və Davamlı İnkişaf Nazirliyinin Gömrük və Vasitəli Vergilər Baş İdarəsinin baş direktoru Mişel Ondinqa Nquanquen arasında görüş keçirilmişdir. Görüş Bakı şəhərində, "Gülüstan" sarayında keçirilən Ümumdünya Gömrük Təşkilatının 10-cu illik PICARD konfransı çərçivəsində baş tutmuşdur. Bakıda ÜGT-nin 10-cu illik PICARD konfransının yüksək səviyyədə təşkilindən də razı qaldıqlarını ifadə edən nümayəndə heyətinin rəhbəri bu tədbirin gömrük xidmətlərinin potensialının artırılması işinə fayda verəcəyinə inandığını söyləyib. Baş direktor sentyabrın 7-də, ÜGT-nin Bakı şəhərindəki Regional Kinoloji Mərkəzinin rəsmi açılış mərasimi çərçivəsində Qabon Gömrük Xidmətinə Azərbaycanda təlim olunan 2 itin hədiyyə olaraq verilməsinə görə də minnətdarlığını bildirib.



10 sentyabr tarixində Xaçmaz Gömrük İdarəsinin Rusiya Federasiyası və Azərbaycan Respublikasının dövlət sərhədində yerləşən "Samur" gömrük-keçid məntəqəsinin inzibati binasında Azərbaycan-Rusiya gömrük xidmətləri nümayəndələrinin işçi qrupunun görüşü keçirilmişdir. Görüşdə Rusiya Federasiyasını Şimali Qafqaz Gömrük İdarəsinin Dağıstan Gömrük İdarəsinin rəisi Ruslan Yəhyayev, Azərbaycan Respublikasını isə Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsinin rəisi Azər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil etmişdir. Görüşdə gömrük keçid məntəqələrindən malların, nəqliyyat vasitələrinin keçidi zamanı yaranacaq problemlərin birlikdə aradan qaldırılması, qarşılıqlı məlumat mübadiləsinin davam etdirilməsi və daha da gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının daşınması zamanı vaxta qənaət etmək məqsədilə bütün zəruri tədbirlərin görülməsi, eləcə də birgə əməkdaşlığın gələcək perspektivləri müzakirə olunub, tərəfləri maraqlandıran bəzi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

10 sentyabr tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev və Kamerun Gömrük İdarəsinin baş direktoru xanım Li Likeng Minette Mendomo Avoumvele Libom arasında görüş keçirilmişdir. Ümumdünya Gömrük Təşkilatının 10-cu illik PICARD konfransı çərçivəsində baş tutan görüşdə DGK sədri Kamerun Gömrük Xidmətinin nümayəndə heyətilə Bakıda yenidən görüşməkdən məmnunluğunu ifadə etmiş, hər iki ölkənin gömrük xidmətlərinin əlaqələrinin hazırkı vəziyyəti və perspektivindən danışmışdır. Azərbaycana yenidən səfər etməkdən şad olduğunu dilə gətirən Kamerun Gömrük İdarəsinin baş direktoru xanım Li Likeng Minette Mendomo Avoumvele Libo ÜGT-nin Bakı şəhərində keçirilən 10-cu PICARD konfransının yüksək səviyyədə təşkil edildiyini vurğulayıb. Bu ilin aprelində Bakıya səfəri zamanı Azərbaycan gömrüyünün keçdiyi inkişaf yolu ilə yaxından tanış olduğunu bildirən baş direktor Azərbaycan gömrük orqanlarının model olduğunu və bu təcrübəni Kamerunda da tətbiq etmək istədiklərini diqqətə çatdırıb.

10 sentyabr tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev və Çin Xalq Respublikasının Şanxay Gömrük Kollecinin prezidenti, professor Xiao Jianguo arasında görüş keçirilib. ÜGT-nin 10-cu illik PICARD konfransı çərçivəsində Azərbaycanda səfərdə olan qonaqları salamlayan DGK sədri Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında həm iqtisadi, həm də siyasi sahədə əlaqələrin hazırkı durumundan bəhs edib və

gələcəkdə də bu əlaqələrin inkişaf edəcəyinə əminliyini bildirib. Rəhbərlik etdiyi təhsil ocağının dünyanın bir çox ölkələrinin gömrük universitetləri ilə səmərəli əlaqələr qurduğunu bildirən X. Jianguo Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası ilə də əlaqələrin səmərə verəcəyinə əminliyini ifadə edib. Qonaq gələcəkdə qarşılıqlı olaraq tələbə mübadiləsinin, müəllim, professor heyətinin əldə etdikləri bilik və təcrübələrin paylaşılmasının hər iki təhsil ocağı üçün faydalı olacağını bildirmişdir.

**16 sentyabr** tarixdə Dövlət Gömrük Komitəsində Birləşmiş Ərəb Əmirliklərinin Dubay Əmirliyinin Dəniz Limanları, Gömrük və Cəbəl Əli Azad Zona Komitəsinin sədri Sultan Əhməd Sultan bin Sulayemin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Nümayəndə heyəti görüşdən öncə Fəxri xiyabanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, eləcə də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları üzərinə gül dəstələri düzüb. Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının məzarlarını ziyarət ediblər. Daha sonra Dubay nümayəndə heyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüşü keçirilib. Sonra qonaqlar Dövlət Gömrük Komitəsində Dubay Gömrük Xidməti haqqında təqdimat keçirib, eyni zamanda Azərbaycanda gömrük xidmətinin müasirləşdirilməsi layihələri ilə tanış olublar. Bundan başqa, Dubay nümayəndə heyəti Dövlət Gömrük Komitəsinin Mərkəzi Hospitalına baş çəkib və burada qonaqlara səhiyyə ocağının fəaliyyəti barədə ətraflı məlumat verilib.



**16-18 sentyabr** tarixlərində Portuqaliyanın Porto şəhərində Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasının 23-cü Konfransı və Baş Assambleyası keçirilmişdir. Hər iki tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin “Azərterminalkompleks” Birliyinin direktoru, gömrük xidməti general-mayoru Qambay Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Portuqaliyaya səfər Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyası (IACM) və Portuqaliya Nəqliyyat və Rabitə Muzeyinin dəvətilə baş tutmuşdur. Beynəlxalq Gömrük Muzeyləri Assosiasiyasının 23-cü konfransı və Baş Assambleyası Portuqaliya Nəqliyyat və Rabitə Muzeyində keçirilmişdir. Burada, 2012-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Tarixi Muzeyi adından Portuqaliya Nəqliyyat və Rabitə Muzeyinə hədiyyə edilmiş Azərbaycan gömrük əməkdaşının xüsusi forması geyindirilmiş maneken tədbir iştirakçılarının marağına səbəb olmuşdur.

**2-3 oktyabr** tarixlərində Türkiyə Respublikasının gömrük və ticarət naziri Cenap Aşçının rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərdə olmuşdur. Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Ankarada Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında iki ölkənin gömrük xidmətləri arasında birgə komitənin yaradılması ilə bağlı qəbul edilən qərara uyğun olaraq oktyabrın 2-də Bakıda komitənin ilk toplantısı keçirilmişdir. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Gömrük və Ticarət Nazirliyi arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin birinci iclası ÜGT-nin Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev və Türkiyə Respublikasının gömrük və ticarət naziri Cenap Aşçının iştirakı ilə keçirilən toplantıda iki ölkə arasında gömrük və ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur. Bu əlaqələrin hazırkı vəziyyəti, gömrük rəsmiləşdirilməsi, əməliyyatların sadələşdirilməsi kimi məsələlər nəzərdən keçirilib.



**6 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçi qəbul etmişdir. Aydın Əliyev ilk olaraq səfiri yeni təyinatı münasibətilə təbrik etmiş, ona gələcək fəaliyyətində uğurlar arzulamışdır. Səmimi qəbula görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən Belarus Respublikasının fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviç Azərbaycanda səfir kimi fəaliyyətindən məmnunluğunu və burada az müddətdə böyük təəssüratlar əldə etdiyini söyləyərək, həqiqətən ölkədə iqtisadi tərəqqinin şahidi olduğunu bildirmişdir. Qonaq iki dost ölkə arasında bütün sahələrdə, o cümlədən, gömrük sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulamış, qarşılıqlı fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkmiş, bütün sahələrdə, o cümlədən gömrük müstəvisində münasibətlərin daha da intensivləşdirilməsi ilə bağlı proseslərdə yaxından iştirak edəcəyini diqqətə çatdırmışdır. Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılmış, birgə əməkdaşlığın gələcək perspektivləri müzakirə olunmuşdur.

**6 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev İsveçrə Konfederasiyasının Azərbaycana yeni təyin olunmuş səfiri Filip

Stalderi qəbul etmişdir. Aydın Əliyev Azərbaycanla İsveçrə arasında təşəkkül tapmış qarşılıqlı, faydalı əməkdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluğunu ifadə etmiş, əlaqələrin gələcəkdə daha da intensivləşəcəyinə ümidvar olduğunu bildirmişdir. DGK sədri iki ölkə arasında bütün sahələrdə əməkdaşlıqdan razılıqla söhbət açmış, xüsusilə bu əlaqələrin genişlənməsində gömrük orqanlarının da üzərinə mühüm vəzifələrin düşdüyünü bildirmiş, hər iki ölkənin gömrük xidmətlərinin qarşılıqlı münasibətlərindən, gələcək perspektivlərdən bəhs etmiş, əməkdaşlığın dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkmişdir. Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Bakı şəhərində yerləşən Avropa Regional Ofisinə isveçrəli mütəxəssis Roger Hermannın rəhbərlik etməsini böyük məmnunluq hissi ilə dilə gətirən isveçrəli diplomat iki ölkənin uyğun qurumları arasında əlaqələrin gələcək perspektivlərindən də bəhs etmişdir.

**18 noyabr** tarixində Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin mütəxəssislərindən ibarət nümayəndə heyəti İtaliyanın Roma şəhərində işgüzar səfərdə olmuşdur. Səfərdə məqsəd İtaliya Gömrük Xidmətinin əməkdaşları ilə “Tranzitin inkişaf yolları” mövzusunda müzakirələr aparmaq olmuşdur. Müzakirələrə avtomobil, hava, dəniz və dəmiryolu ilə daşınan tranzit yüklərin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti proseslərinin sadələşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsi kimi məsələlər daxil idi. Bununla yanaşı, Azərbaycan və İtaliya gömrük-çülərinin danışıqlarında sərnişinlər tərəfindən daşınan mallar üzrə risklərin təhlili əsa-sında gömrük nəzarətinin optimallaşdırılması və “yaşıl kanal” buraxılış sisteminin tətbiqi imkanlarının daha da artırılması istiqamətində məsələlər nəzərdən keçirilmişdir.

**26 noyabr** tarixində Xaçmaz Gömrük İdarəsinin Rusiya Federasiyası və Azərbaycan Respublikasının dövlət sərhədində yerləşən “Samur” gömrük-keçid məntəqəsinin inzibati binasında Azərbaycan-Rusiya gömrük xidmətləri nümayəndələrinin işçi qrupunun növbəti görüşü keçirilmişdir. Məqsəd gömrük-keçid məntəqələrində meydana çıxan problemləri yerində həll etmək və keçid məntəqələrinin işinin səmərəliliyini artırmaq üçün müvafiq tədbirlər görmək və bununla əlaqədar məlumat mübadiləsini həyata keçirmək olub. Görüşdə Rusiya Federasiyasını Şimali Qafqaz Gömrük İdarəsinin Dağıstan Gömrük İdarəsi Yaraq-Qazmalar gömrük postunun rəisi Malaalli İsayev, Azərbaycan Respublikasını isə Dövlət Gömrük Komitəsi Xaçmaz Gömrük İdarəsinin rəis müavini Zal Zalovun rəhbərlik etdiyi nümayəndə heyətləri təmsil edib. Azərbaycan və Rusiya gömrük xidməti nümayəndələri müxtəlif keçid məntəqələri üzrə gömrük əməliyyatları, gömrük nəzarətinin təşkili, qarşılıqlı yardım və əməkdaşlıq məsələlərilə yanaşı, iki ölkə arasında kənd təsərrüfatı sahəsində mal dövriyyəsinin artımı və son günlərdə Azərbaycandan Rusiyaya daşınan kənd təsərrüfatı məhsullarının təyinat məntəqələrinə çatdırılmasında yaranan problemlər və onların aradan qaldırılması yollarını müzakirə ediblər.

**8 dekabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Antonius Bernardus Broeki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir. DGK sədri Aydın Əliyev diplomatın respublikamızda səmərəli fəaliyyətini yüksək qiymətləndirmiş, ona gələcək işlərində uğurlar arzulamışdır. 1999-cu ilin yanvar ayından icrasına başlanılan BMT İP və Azərbaycan Hökuməti arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Potensialının Gücləndirilməsi və Məlumatların Ötürülməsi Şəbəkəsinin Yaradılması" layihəsinin uğurla davam etdiyini məmnunluqla xatırlayan Komitə sədri bu layihənin avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması sahəsində gömrük xidmətinin inkişafına olduqca müsbət təsirindən danışmışdır. Xoş sözlərə və səmimi qəbula görə Dövlət Gömrük Komitəsinin sədri

Aydın Əliyevə təşəkkürünü bildirən Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Antonius Bernardus Broek müstəqil Azərbaycanın gömrük orqanlarının inkişaf tendensiyasından razılıqla söhbət açmışdır. BMT İnkişaf Proqramı ilə gömrük xidməti arasında əməkdaşlığı yüksək qiymətləndirən qonaq gələcək perspektivlər barədə də danışmış, layihənin növbəti mərhələsinin Azərbaycan-Gürcüstan sərhədində-"Sınıq Körpü" gömrük-sərhəd keçid məntəqəsində həyata keçirilməsinin planlaşdırıldığını diqqətə çatdırmış, mövcud olan sıx və səmərəli münasibətlərin daimi olacağına əminliyini ifadə etmişdir.

**16-17 dekabr** tarixlərində Gürcüstanın Telavi şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın Ticarətə və Nəqletməyə Yardım layihəsi üzrə Rəhbəredici Komitəsinin 23-cü iclası keçirilib. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsini Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru İqbal Babayevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib. İclasın məqsədi GUAM-ın Ticarətə və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsilə bağlı məsələləri müzakirə etmək olmuşdur.

**25 dekabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində «Biznes subyektləri üçün əlverişli şərait yaradılması məqsədilə gömrük prosedurları və əməliyyatları üzrə tətbiq edilən sadələşdirmələr» mövzusunda seminarın 2-ci mərhələsi keçirilmişdir. Seminarın açılışında çıxış edən Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Cavad Qasımov sahibkarliğin inkişafına dəstəyin daha da artırılması, ölkəmizdə sahibkarlıq subyektlərinin fəaliyyətinin təşviq edilməsi istiqamətində gömrük orqanlarının atdığı addımlar barədə məlumat vermişdir. Seminar çərçivəsində Dövlət Gömrük Komitəsinin Gömrük Nəzarətinin Təşkili və Maliyyə Tarif və Valyuta Nəzarəti Baş İdarələrinin əməkdaşları "Bəyanetmə proseduru, gömrük bəyannamələrinin verilməsi prosesində tətbiq edilən sadələşdirmələr", "Gömrük ödənişlərinin hesablanması, tətbiqi və ödənilməsi prosesi", "Gömrük əməliyyatı və prosedurları", Gömrük sərhəd prosedurlarının sadələşdirilməsi" və digər mövzularda sahibkarları məlumatlandırmış, onları maraqlandıran suallara ətraflı cavab vermişlər.